# MUZEYLƏR vasitəsilə maddi mədəniyyət nümunələrinin toplanması, işlənməsi və təbliği işinin mahiyyəti və əhəmiyyəti

Hicran Sadıqzadə,
ADMİU-nun
dissertantı

Təlimat bütün dövlət muzeyləri, həmçinin muzey işçiləri ilə bağlı olan sərgi və bərpa müəssisələri üçün də məcburidir. Təlimat 6 bölmədən ibarətdir: ümumi qaydalar, muzey fondlarının tərkibi, muzey fondlarının dövlət uçotu, muzey sərvətlərinin mühafizəsi, muzey sərvətlərinin qablaşdırılması, daşınması və əlavələr. Ümumi qaydalar bölməsində uçot-mühafizə işinin qaydaları, mühafizin və mühafizətmə funksiyalarını yerinə yetirən digər əməkdaşların hüquq və vəzifələri, muzey sərvətlərinin konservasiyası və bərpa üzrə işin təşkilindən bəhs edilir.

II bölmədə ölkəmizdə fəaliyyət göstərən təbiyyat tarixi muzeylərində, yaxud şöbələrində, tarix profilli muzeylərdə, yaxud şöbələrdə, xatirə (memorial) muzeylərində və bədii muzeylərdə fondların tərkib quruluşundan bəhs edilir.

III bölmədə muzeyə daxil olan əşyaların qəbulu və təhlili qaydaları, qeydiyyat, elmi inventarlaşdırma, fondun uçotu, əşyaların təkrar uçotu və mühafizə qaydaları ardıcıllıqla verilmişdir.

IV bölmədə mühafizə qaydaları, ekspozisiya zallarının avadanlıqla təchizi, muzey fondlarının saxlanc yerləri və onların avadanlıqla təchizatı, mühafizə, temperatur-rütubət, işıq və bioloji-rejimlər, havanın çirklənməsi, əşyaların ayrı-ayrılıqda (materiallar üzrə) mühafizəsindən bəhs edilir.

V bölmədə qablaşdırma materialları, dəzgah boyakarlığı əsərlərinin, ağaç üzərində tempera boyakarlığı əsərlərinin, qrafika əsərlərinin, heykəltəraşlıq və dekorativ-tətbiqi sənət əsərlərinin qablaşdırılması mahiyyət baxımından problem əhəmiyyətlidir.

VI bölmədə 25 əlavə - cədvəllər verilmişdir.

Bütövlükdə təlimat araşdırdığımız problem baxımından mühüm əhəmiyyət kəsb edir. Çünki, hər bölmədə bu və digər dərəcədə araşdırmamızla bağlı vacib bəndlər vardır.

Təlimatın ayrı-ayrı bölmələrinin müasir muzey fəaliyyətində mühüm əhəmiyyətindən dissertasiyanın 2-ci yarımfəslində daha geniş bəhs ediləcəkdir.

Azərbaycan mədəniyyətinin hazırki tərəqqi dövründə maddi mədəniyyət nümunələrinin toplanması, işlənməsi və təbliği prosesləri məhz muzeylər vasitəsilə həyata keçirildiyindən, onların fəaliyyət mexanizminin daha da təkmilləşdirilməsi mərhələ-mərhələ həyata keçirilməlidir. Çünki "... muzey təbiyyat tarixi, maddi və mənəvi mədəniyyət abidələrini komplektləşdirən, saxlayan, öyrənən və nümayiş etdirən elmi-maarif müəssisəsi"dir (4, s.66). Problemə bu mövqedən yanaşdıqda qeyd etməliyik ki, dövlət muzeylərinin maddi mədəniyyət nümunələrinin toplanması, işlənməsi və təbliğində məxsusi mövqeyi, əhəmiyyəti vardır. Hazırda Azərbaycanda 160 muzey fəaliyyət göstərir (5, s.410). O cümlədən,14 tarix, 34 memorial, 65 diyarşünaslıq, 38 sənətşünaslıq və 9 digər profilli muzeylərdir. Təbiidir ki, tədqiqat prosesində biz 160 muzeyin hər birinin fəaliyyəti zəminində problemlə bağlı araşdırma apara bilmərik, çünki, birincisi, say etibarilə bu qeyri-mümkündür. İkincisi, bunlar müxtəlif profillidir, üçüncüsü, mühit, məkan baxımından müxtəliflik mövcuddur və kənd rayonlarında fəaliyyət göstərən muzeylərin fəaliyyətində həmin ərazilərdəki, mövcud vəziyyətlə bağlı, obyektiv, subyektiv səbəblərlə əlaqədar mürəkkəblik özünü göstərir. Bütün bu və digər amilləri nəzərə alaraq araşdırma ilə bağlı 2150 nəfər müxtəlif yaş qrupuna mənsub insanlar və müxtəlif peşə sahibləri ilə apardığımız sorğular, müsahibələr bir daha göstərdi ki, əsasən Bakı şəhərindəki R.Mustafayev adına Azərbaycan Dövlət İncəsənət Muzeyinə, Azərbaycan Milli Elmlər



*Hazırda Azərbaycanda muzeylər vasitəsilə maddi mədəniyyət nümunələrinin toplanması və işlənilməsi prosesi Respublika Mədəniyyət Nazirliyinin 14 oktyabr 1996-cı il tarixli 217-li əmri ilə təsdiq edilmiş Azərbaycan Respublikası Dövlət muzeylərində saxlanılan muzey sərvətlərinin uçotu və mühafizəsinə dair təlimata əsasən həyata keçirilir. Təlimat Azərbaycan Respublikasının muzey fondunun tərkibinə daxil olan muzey əşyalarının vahid uçot, elmi inventarlaşdırma, mühafizə və bərpa sistemini yaratmaq məqsədilə hazırlanmışdır.*

Akademiyasının Azərbaycan Tarixi Muzeyinə, L.Kərimov adına Azərbaycan Xalçası və Xalq Tətbiqi Dövlət Muzeyinə, C.Cabbarlı adına Azərbaycan Dövlət Teatr Muzeyinə, Azərbaycan Dövlət Musiqi Mədəniyyəti Muzeyinə, Azərbaycan Milli Elmlər Akademiyasının Azərbaycan Ədəbiyyatı Muzeyinə maraq daha çoxdur və buna görə də onların iş təcrübəsi, həmin muzeylərin fəaliyyəti zəminində tədqiqatımızla bağlı problemin araşdırılmasına çalışacağıq.

Sorğuda əhatə etdiyimiz 2150 nəfərin 64%-i məktəblilər, 22%-i tələbə-gənclər, 14%-i isə müxtəlif peşə sahibləri olmuşlar. Sorğu apardığımız məktəblilər və tələbələr əsasən Bakı şəhərindəki tarix və sənətşünaslıq muzeylərinə maraq göstərmişlər. Belə ki, 76% məktəbli – tələbələr sənətşünaslıq muzeylərinə, 10% gənclər isə tarix muzeylərinə maraq göstərdiklərini bildirmişlər. Müxtəlif peşə sahiblərinin də 6%-i tarix, 8%-i isə sənətşünaslıq muzeylərinə maraq göstərmişlər. Digər tərəfdən isə, araşdırmamızda müxtəlif yaş qruplu insanlar, o cümlədən məktəblilər, tələbələr, müxtəlif peşə sahiblərinin maraqları baxımından ayrı-ayrı tədqiqat metodları tətbiq ediləcəkdir.

Qeyd etməliyəm ki, araşdırdığımız problem sırf muzeyşünaslıq əhəmiyyətli olduğundan müasir muzeyşünaslığın nəzəri və təcrübi istiqamətlərinə istinad edilməsini məqsədyönlü hesab etmişik. "Muzeyşünaslıq – muzeylərin yaranması, elmi-ictimai fəaliyyəti, muzey işinin nəzəriyyə və metodikası, muzey memarlığının əsasları, muzeylərin müasir avadanlıq və eksponatlarla təchizi (həmçinin nümunələrin toplanması, işlənməsi və təbliği – **H.S.**) məsələləri ilə məşğul olan elm sahəsi muzeyşünaslığın başlıca vəzifələrinə, həmçinin muzey işi prinsiplərinin elmi əsaslar üzərində qurulması da daxildir..." (4, s.66). Bu tərifdən göründüyü kimi, burada tarixilik, elmi-ictimai təsir dairəsi, nəzəriyyə və metodika, muzey texnologiyası (müasir texnologiyanın tətbiqi) eksponat təchizatı mühüm amillər kimi verilmişdir. Eyni zamanda elmi əsaslar üzərində qurulmuş, muzey işinin prinsiplərinin də mühüm əhəmiyyəti göstərilir. Yeri gəlmişkən qeyd etmək istərdik ki, son illər Azərbaycan muzeyşünaslığının inkişafında mühüm addımlar atılmış və muzeyşünaslıqda qarşılıqlı əlaqələr, qanunauyğunluqlar barədə dəyərli məqalələr çap edilmiş, müzeyşünaslığın nəzəri tərəflərinin inkişafı barədə əhəmiyyətli maraqlı fikirlər qeyd edilmişdir:

"Müasir muzey fəaliyyəti qarşılıqlı əlaqələrsiz mövcud deyildir. Muzey fəaliyyəti prosesində ünsürlər arasındakı qarşılıqlı əlaqələrin mahiyyətinin dəqiq araşdırılması və hərtərəfli izahı müvafiq qanunauyğunluqları doğurur. Qanunauyğunluğun əhatə etdiyi fəaliyyət prosesi hadisələri arasındakı əsas əlaqə və asılılıqların mahiyyəti aydın şəkildə əks edilməlidir.

Muzey fəaliyyətinin məqsədyönlü davamı və səmərəli nəticələr verməsi üçün fəaliyyət ünsürləri arasındakı qarşılıqlı əlaqə və asılılıqların öyrənilməsi, tədqiqi əhəmiyyət kəsb edir. Müvafiq qanunauyğunluqlar məhz muzey fəaliyyətinin ünsürləri arasındakı belə qarşılıqlı əlaqə və asılılıqlarda təzahür edir. Muzey fəaliyyətinin ünsürləri arasındakı qarşılıqlı əlaqələr müxtəlifdir. Hər ünsürün özünə müvafiq xüsusiyyət çərçivəsində və digər ünsürün xüsusiyyətinə xas ümumi əlaqələr mövcuddur. Muzey fəaliyyəti prosesində qarşılıqlı əlaqədə olan əsas ünsürləri

aşağıdakı kimi vermək məqsədyönlüdür: fəaliyyətdə mühit və şəraitin yeri, əhəmiyyəti; muzey fəaliyyətinin mahiyyəti; muzey fəaliyyətinin məqsədi; muzey fəaliyyətinin məzmunu; muzey fəaliyyətinin vəzifələri; muzey fəaliyyətinin mərhələləri və muzey fəaliyyətinin nəticələri.

Muzey fəaliyyətinin ünsürlərinin qarşılıqlı əlaqələrini aşağıdakı kimi qruplaşdırmaq olar:

I. Fəaliyyətdə mühit və şəraitin yeri, əhəmiyyəti üzrə:

1. Muzey fəaliyyətinin əhatə olunduğu mühitdən, şəraitdən asılılığı.
2. Muzey fəaliyyətinin muzey mühitindən asılılığı.
3. Muzey mühitində yaradıcı ilə tamaşaçı arasında qarşılıqlı əlaqə.

II. Muzey fəaliyyətinin mahiyyəti üzrə:

1. Muzey işçisi, ekspozisiya və tamaşaçı fəaliyyətinin bir-birini şərtləndirməsi.
2. Muzey mühiti vasitəsilə dərketmənin ekspozisiya materiallarından asılılığı.
3. Zənginləşmənin muzey tədbirlərinin keyfiyyətindən asılılığı.
4. Muzey fəaliyyəti vasitəsilə elmi idrakla yaradıcı idrak arasındakı ziddiyyətlərin aradan qaldırılması.

III. Muzey fəaliyyətinin məqsədi üzrə:

1. Qarşıya qoyulan məqsədin həyata keçirilməsində muzeydaxili əlaqə və asılılıqların nizamlanması.
2. Əlaqələrdə vahid məqsədə xidmət edilməsi.
3. Qarşılıqlı əlaqələrdə müvafiq nəzarətin vacibliyi.

IV. Muzey fəaliyyətinin məzmunu üzrə.

1. Muzey fəaliyyətinin elmiliyi.
2. Muzey fəaliyyətində planlılıq, ardıcıllıq və mütəmadiliyin əlaqəsi və bir-birini şərtləndirməsi.
3. Muzey fəaliyyətinin məzmunu ilə vasitələrinin əlaqəsi.
4. Muzey fəaliyyətində mövcud metod, forma və yollarının əlaqəsi.
5. Muzey fəaliyyətinin elmi və bədii yaradıcılıqdan asılılığı.

V. Muzey fəaliyyətinin vəzifələri üzrə:

1. Muzey fəaliyyətinin tərbiyəedici imkanları arasında qarşılıqlı əlaqə və onlardan istifadə.
2. Muzey fəaliyyətinin təhsilləndirici imkanları arasındakı əlaqələr və onlardan istifadə.
3. Muzey fəaliyyətinin inkişafetdirici və formalaşdırıcı imkanlarının qarşılıqlı əlaqəsi və onlardan istifadə.

VI. Muzey fəaliyyətinin mərhələləri üzrə:

1. Muzey fəaliyyətinin mərhələlərinin muzey işçisinin fəaliyyətindən asılılığı.
2. Muzey fəaliyyəti mərhələlərinin bir-birini şərtləndirməsi.
3. Muzey fəaliyyəti mərhələlərinin muzeydaxili bölmə və kollektivlərin qarşılıqlı əlaqəsindən asılılığı.
4. Mərhələlərin muzeyin elmi-yaradıcı potensialının qarşılıqlı əlaqə fəaliyyətindən asılılığı.

VII. Muzey fəaliyyətinin nəticələri üzrə:

1. Mənən zənginləşmənin nəticəsinin muzey fəaliyyətinin üsul və vasitələrindən asılılığı.
2. Nəticənin muzey fəaliyyəti ünsürlərinin əlaqə və vəhdətindən asılılığı.
3. Nəticənin əldə olunması prosesində ünsürlərin bir-birini şərtləndirməsi.
4. Muzey fəaliyyəti nəticəsində mənəvi zənginləşmənin elmi-dünyagörüşünü və hərtərəfli formalaşmanı inkişaf etdirməsi.
5. Muzey fəaliyyəti nəticələrinin qiymətləndirilməsində əlaqəlilik.

Beləliklə, qarşılıqlı əlaqə və asılılıqlar muzeyin sonrakı inkişafı və fəaliyyətinin (muzeyşünaslığın – **H.S.**) daha da təkmil şəklə düşməsi üçün zəminə çevrilir. Fəaliyyətdə iştirak edən hər bir tərəfin, ünsürün aktiv şəkildə bir-birinə məqsədyönlü və planlı təsir göstərməsi real perspektivli inkişafın mexanizmi rolunu oynayır." ( 6, s.51 – 52).

Tədqiqatçı S.A.Əmirxanovun yuxarıdakı elmi-tədqiqi fikirlərində ünsürlərarası qarşılıqlı əlaqələrin biri-birini şərtləndirməsi qanunauyğunluq təşkil edir. Göründüyü kimi, əgər mühit, şərait mövcud deyilsə əlaqə və qanunauyğunluqlar mümkün olmazdı, mahiyyətin nəzəri əsasları işlənməsə, tədqiq olunmasa, məqsəd, məzmun, vəzifələr, fəaliyyət mərhələlərinin həm nəzəri, həm də təcrübi həlli mümkün olmazdı. Və yaxud sonrakı qarşılıqlı əlaqələrin biri olmasa, digərlərinin nəzəri və təcrübi tədqiqi mümkün deyildir.

Araşdırma nəticəsində məlum olmuşdur ki, hər bir qarşılıqlı əlaqə mahiyyət etibarilə tədqiq



etdiyimiz problemin məzmununun bir hissəsini əks etdirir və bilavasitə problem əhəmiyyətlidir. Yəni həmin qarşılıqlı əlaqələr maddi mədəniyyət nümunələrinin toplanması, işlənməsi və təbliğinin həm nəzəri, həm də təcrübi tərəflərini özündə cəmləşdirir. Məhz nümunələrin tarixini özündə əks etdirməsi, muzey fəaliyyətində əsas və mühüm yeri, tədqiqat mənbəyi olması, müvafiq muzey mühitində təsir gücü, tamaşaçıda yaratdığı təəssüratın keyfiyyəti, yəni mühitə təsiri, mühüti dəyişdirmə gücünə malik olması, muzey fəaliyyətinin məqsədini, vəzifələrini təyin etmək imkanlarına malik olması, muzey fəaliyyətindəki mərhələlik amilinin vacibliyini, nəhayət, fəaliyyətin nəticələrinin təyin olunmasında bilavasitə mühümlüyü yuxarıdakı qarşılıqlı əlaqələrdə özünü göstərir.

Muzey fəaliyyətində muzey mühitinin mühüm əhəmiyyəti özünü əşya və nümunələrin toplanması, qorunması və təbliği prosesində də göstərir. Ümumiyyətlə, mühitsiz heç bir muzey fəaliyyətindən danışmaq qeyri mümkündür.

"Fəaliyyətin əsas amili olan muzey mühiti mənbəsiz, yəni əşyalarsız, eksponatlarsız, müvafiq materiallarsız mövcud deyildir. Digər mühit amillərinin işləri ekspozisiya əsasında qurulur, planlaşdırılır. Buna görə də eksponat və materiallar əsasında yaradılan ekspozisiya müvafiq təsir gücünə malikdir. Eksponatların təsir gücü isə müvafiq profillə ölçülür. Təsviri, dekorativ-tətbiqi, memarlıq, heykəltaraşlıq, teatr, musiqi və s. istiqamətli xüsusiyyətə malik eksponatlar müvafiq profilli muzeylərdə ekspozisiyada nümayiş etdirilməklə, digər mühit amillərilə fasiləsiz qarşılıqlı əlaqədədirlər.

Doğrudur, ekspozisiyanın əsasını eksponatlar təşkil edir, məzmununu, tərkib hissələrini canlandırır, lakin ekspozisiyanın yaradılma prosesinin əsasında muzey mühitinin hərəkətverici, istiqamətləndirici, təşkiledici qüvvə - muzeyin elmi-yaradıcı potensialı durur. Məhz, sonuncuların elmi yaradıcılıqları sayəsində ekspozisiya tamaşaçının ixtiyarına verilir. Beləliklə, ayrı-ayrı eksponatlar qarşılıqlı şəkildə əlaqələndirilərək ekspozisiyaya seçilir və sonra isə elmi-bədii şəkildə ekspozisiyanın özündə əşya və materiallar arasında əlaqəlilik yaradılır. Məhz bu əlaqələndirilmədə idrak, şüur yenidən iştirak edir. Yaradıcı idrakın fəallığı sayəsində ekspozisiyanın elmi-bədii təcəssümü müvafiq təsirə malik olur. Nəticədə üçüncü tərəf – yaradıcı insan özünün yeni fəaliyyət mərhələsi ilə əsas amil kimi yerini göstərir ( əlbəttə, əvvəlki proseslərdə də insan şüuru iştirak edir). Buraya texniki vasitələrin də əlavə edilməsini insan fəaliyyətinin nəticəsi kimi nəzərə alsaq, bu ümumi təsirin ünvanlandığı tamaşaçı qüvvəsinin mühit çərçivəsində əlaqələndirmədə iştirakının şahidi olarıq. Tamaşaçı özünəqədərki proseslərdə iştirak etmədiyindən, onda birdən-birə düşdüyü elmi-bədii şəraitə əsasən müxtəlif istiqamətli maraqlar yaranır. Yəni ekspozisiya ilə tamaşaçı arasında ziddiyyət, uyğunsuzluq yaranır. Əgər ekspozisiya materialları və təşkilatçılıq amilləri arasındakı qarşılıqlı əlaqələrin keyfiyyəti nə qədər elmilik, bədiilik,məqsədyönlülük, ardıcıllıq, peşəkarlıq, kütləvilik, yaşauyğunluq baxımından yüksək səviyyədə nəzərə alınarsa, tamaşaçının özünəqədərki bədii hadisəyə - ekspozisiyaya münasibəti bir o qədər fəal olar, güclü qarşılıqlı əlaqələr təşəkkül tapar, inkişaf edər, nəticədə müxtəlif elmi – bədii yaradıcılıq nailiyyəti əldə olunar" (9, s.30 – 31).

Qarşılıqlı əlaqələrdə mahiyyət baxımından əlaqəlilik də problem əhəmiyyətlidir. Birincisi, muzey işçisi, ekspozisiya və tamaşaçı fəaliyyətinin biri-birini şərtləndirməsi məhz muzeydə qorunan, nümayiş etdirilən eksponat vasitəsilə mümkündür.

İkincisi, dərketmə prosesi də həmçinin mərhələ - mərhələ muzeyə toplanan, qorunan və nümayiş etdirilən eksponatlarsız mümkün deyildir.

Üçüncüsü, muzeydaxilində zənginləşmə prosesi ekspozisiya və eksponatlar, yaradıcı sənətkarlara həsr edilən müxtəlif səpkili muzey tədbirləri vasitəsilə həyata keçirilir.

Dördüncüsü, idraki proseslər muzey fəaliyyəti vasitəsilə həyata keçirilir və bu zaman baş verən ziddiyyətlilik inkişafa müsbət təsir göstərir.

Muzey fəaliyyətinin məqsədi üzrə qarşılıqlı əlaqəlilik də problem əhəmiyyətlidir. Birincisi, qarşıya qoyulan məqsədin həyata keçirilməsi prosesində əşya, materialların toplanması, qorunması, bərpası, təbliğindən bilavasitə asılıdır.

İkincisi, əlaqələrdə vahid məqsədə xidmət edilməsində muzey işçilərinin bilavasitə ekspo-

nat, ekspozisiya ilə bağlı fəaliyyətinə, muzey tədbirlərində əməkdaşların qorunub saxlanma, bərpa, tədqiqetmə, təbliğetmə, nümayişlə bağlı fəaliyyətlərinə ciddi diqqət yetirilməlidir.

Üçüncüsü, məhz fəaliyyət prosesində nəzarət prosesi həyata keçirilməlidir ki, bu da eksponat, ekspozisiyasız, digər muzey işi formaları olmadan qeyri-mümkündür.

Muzey fəaliyyətinin məzmunu üzrə qarşılıqlı əlaqələrə diqqət yetirdikdə görürük ki, bu prosesdə müvafiq prinsiplərə, forma və metodlara əməl olunmalıdır:

Birincisi, muzey fəaliyyətində elmilik vacib şərtdir ki, bu da ümumilikdə muzeyin hərtərəfli fəaliyyətini əhatə etməlidir. Yəni, fond işi, sərgi fəaliyyəti, digər muzey tədbirlərinin təşkili prosesi, muzeyin ətraf mühitlə əlaqəliliyi və s. proseslər elmilik vasitəsilə yerinə yetirilir.

İkincisi, ümumilikdə muzey fəaliyyətində planlılıq, ardıcıllıq, mütəmadilik mühüm olduğundan, muzey işçiləri bu prinsiplərin qarşılıqlı əlaqəliliyini diqqət mərkəzində saxlamalıdırlar.

Muzey fəaliyyətinin vəzifələri üzrə tərbiyəedici, təhsilləndirici, inkişafetdirici və formalaşdırıcı imkanlar arasındakı qarşılıqlı əlaqələr və onlardan məqsədyönlü istifadə prosesi də məhz eksponatların toplanması, bərpası, qorunması, tədqiqi, nümayişindən bilavasitə asılıdır. Bu imkanlardan müvafiq olaraq zaman, məkan və keyfiyyət baxımından istifadə mərhələli bir tərzdə aparılmalı və biri digəri üçün zəmin rolunu oynaması muzey tərəfindən qiymətləndirilərək nəticə etibarı ilə seçilməlidir.

## Ədəbiyyat


*1. Muzeyşünaslıq. Dərslik. Bakı, 2002, 440 səh.*

*2. Lətif Kərimov. Azərbaycan xalçası. I cild, Bakı-Leninqrad, 1961.*

*3. Röya Tağıyeva. Azərbaycan xalçası. "Şərq-dizayn" çap mərkəzi, Bakı, 1999, 259 səh.*

*4. Röya Tağıyeva. Azərbaycan xalçası məişətdə. "Tutu" nəşriyyatı, Bakı, 2006, 143 səh.*

*5. Rasim Əfəndiyev. Azərbaycanın bədii sənətkarlıq nümunələri dünya muzeylərində. Bakı, "İşıq", 1980, 166 səh.*

*6. Əmirxanov.S., Hüseynov.İ. Dünya muzeyləri və tarixi mədəniyyət abidələri. Bakı Univeristeti nəşriyyatı, 1997, 250 səh.*

*7. Əmirxanov S. Muzey və məktəbli dünyagörüşü. Bakı, 2001, 161 səh.*



**ADMİU-nun muzeyşünaslıq kafedrası tərəfindən təqdim edilib - 16.01.2007**
**Rəyçi: sənətşünaslıq namizədi, professor R.Ağayev**


### Main points of collecting, using and propagating models of material culture by means of museums

### Summary


This article is about main points of collecting, using and propagating models of material culture by means of museums. The problem which analysed from the significant point of view museum management studies has been based on theoretical and practical points.


### Суть и важность собрания, показа и пропаганды образцов культурных ценностей музеями

### Резюме


В статье идет речь о сути и важности собрания, показа и пропаганды обазцов культурных ценностей музеями, рассматриваются проблемы конкретно связанные музееведением, основывается современный подход в практическом и теоретическом направлениям в деятельности музеев.